# Yeni savaş üçün çalışırlar

## Üçtərəfli görüşlə bağlı ABŞ tərəfindən səsləndirilən fikirlər Azərbaycanı sakitləşdirməyə xidmət edir

"Aprelin 5-də keçiriləcək ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşü bir çox mətləblərdən xəbər verir. Əvvəla, Qərb təsisatları, dövlətləri bir daha göstərirlər ki, Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı deyillər".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Onun fikrincə, digər məsələ odur ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması bu dairələri narahat edir. Başda üçtərəfli görüşün "ilhamverici qüvvəsi" Fransanın olduğu bəllidir.

Deputatın sözlərinə görə, Entoni Blinkenin artıq Parisdə olması və bir çox məsələləri müzakirə etməsi "xoruzun quyruğunun görünməsi" mənasına gəlməlidir: "Burada əsas məsələ Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına və ortaq nəticəyə gəlinməsinə mane olmaqdır. Çünki bir neçə belə nümunələr mövcuddur. Azərbaycan və Ermənistan heç bir vasitəçisiz çox yaxşı nümunələr ortaya qoya bildilər. Bunun davamlı olması gözlənilən vaxtda Fransa və onun dəstəklədiyi təsisatlar, digər dövlətlər ortaya atıldılar. Bu münasibətlərin korlanması üçün hər vəchlə əllərindən gələni edirlər".

Uzun müddətdir işğalda olan Azərbaycan kəndləri ilə bağlı məsələlərin müzakirə edildiyini, delimitasiya komissiyalarının görüşlərinin keçirildiyini qeyd edən V.İsgəndərov bildirib ki, konkret nəticələrin olmaması, Ermənistanın baş naziri və digər siyasətçilərin sözdə sülh müqaviləsinin imzalanmasına yaxın olduğumuzu demələrinə baxmayaraq, hələlik əməli addımlar atmamaları ilə bağlıdır. Bu da hər kəsə aydındır. Ermənistan heç vaxt müstəqil dövlət olmayıb, onun üzərində hamilərinin göstərişləri olub. Beləliklə, bu ölkə milli maraqlarından çıxış edərək dövlət siyasətini yürüdə bilmir.

Deputat vurğulayıb ki, indiki halda Amerika tərəfindən Ermənistanın iqtisadi məsələlərinin həll olunması və Qərbə inteqrasiyası, oradakı "qaçqın"larla bağlı fikirlərin səsləndirilməsi sözün əsl mənasında ABŞ Dövlət Departamentinin düz yolda olmadığını göstərir. Otuz ilə yaxın müddətdə Azərbaycanın milyonlarla vətəndaşı qaçqın və məcburi köçkün həyatı yaşayarkən, 20 faiz torpaqları işğal altında olarkən ABŞ tərəfindən bir dəfə olsun belə bir təşəbbüsün şahidi olmadıq. İndi tələm-tələsik işğalçı ölkənin tərəfində olmaq və onu dəstəkləmək ABŞ-nin və Qərbin ikiüzlülüyünü bir daha göstərir.

Müsahibim qeyd edib ki, 5 aprel görüşündə Cənubi Qafqazla bağlı məsələlərin müzakirə olunmayacağı ilə bağlı ABŞ tərəfindən səsləndirilən fikirlər bir növ Azərbaycanı sakitləşdirməyə xidmət edir: "Bu, gözdən pərdə asmaq, Ermənistanı açıq-aydın dəstəkləmək, iki dövlətin sülh müqaviləsi imzalamasına maneə olmaqdır. Ümumiyyətlə, bütün bunlar regionda dayanıqlı sülhün əldə olunmasına kölgə salmaqdan başqa bir şey deyil".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.3.